Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Könlünü sözə bağlayan yazıçı

**Yazıçı, tərcüməçi Manaf Süleymanovun 105 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2017**

**Tərtibçi:** **Könül Səmədzadə**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Agazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Könlünü sözə bağlayan yazıçı:** Manaf Süleymanovun 105 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası ; tərt.ed. K. Səmədzadə ; ixt.red. və burax.məsul Ş. Qəmbərova ; red. K. Ağazadə. - Bakı : F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2017. - 20 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2017**

## Tərtibçidən

Görkəmli ədib, nasir, tərcüməçi, publisist, “Yerin sirri”, “Zirvələrdə”, “Eşitdiklərim, oxuduqlarım, gördüklərim”, “Hacı Zeynalabdin Tağıyev” və s. bu kimi neçə-neçə məşhur əsərin müəllifi Manaf Süleymanovun yaradıcılığının 105 illiyi tamam olur.

Manaf Süleymanovun Azərbaycan tarixini, əsasən, Bakının tarixini güzgü kimi əks etdirən “Eşitdiklərim, oxuduqlarım, gördüklərim” kitabı o illərin böyük ədəbi hadisəsi oldu. Oxucular tərəfindən rəğbətlə qarşılandı. Manaf Süleymanov ədəbi fəaliyyətə 1947-ci ildə “Azərbaycan” jurnalında dərc olunan “Yerin sirri” romanı ilə gəlmişdir. Onlarca xalqların dillərinə tərcümə olunan bu romanın da taleyi uğurlu olub.

Manaf müəllimin tərcüməçilik fəaliyyətinə nəzər salsaq görərik ki, nə qədər geniş və çoxcəhətlidir. Cek London, Con Steynbek, O. Henri, R. Abrahams və başqa müəllifləri Azərbaycan dilinə birbaşa ingiliscədən məharətlə tərcümə edən Manaf Süleymanov Azərbaycan oxucusunu dünya ədəbiyyatının ən nadir inciləri ilə tanış etmişdir.

“Fırtına”, “Zirvələrdə”, “Dalğalar qoynunda” kitablarının əsas qəhrəmanları dəniz neftçiləri, geoloqlar, fəhlələrdir. Bu heç də təsadüfi deyildir. Manaf Süleymanov Azərbaycan Neft-Kimya İnstitutunun geoloji-kəşfiyyat fakültəsini bitirib, əmək fəaliyyətinə isə neft-qaz mədənlərində mühəndisliklə başlayıb. Əmək fəaliyyətinə görə fəxri fərmanlar və medallarla təltif olunmuşdur. Ömür boyu gördükləri doğrudan da bitib tükənməyən ilham mənbəyi olub. Onun “Lahıc” tarixi-etnoqrafik kitabı böyük yaradıcılığının bəhrəsi olub.

## Həyat və yaradıcılığı

Könlünü sözə bağlayandan, əlinə qələm alıb duyğulanan gündən saysız-hesabsız məqalə, hekayə, povest, roman və xatirələrini yazıb. Onlarla kitabın müəllifi kimi tanınıb, sevilib. Dövrünün məşhur yazıçılarından biri kimi böyük rəğbət qazanıb. Elmi axtarışlarla da məşğul olub. Alimlik dərəcəsi alıb. Ali məktəblərdə dosent kimi çalışıb. Tanrı ona bağışlanan ömür payında da səxavətli olub. Manaf Süleymanov 90 ilə kimi ömür sürüb. O, sadəcə yazılarının dərci və kitablarının nəşri ilə məşğul olmurdu. Xarici ölkə ədəbiyyatından, xüsusilə də rus və ingilis yazıçılarının əsərlərini Azərbaycan dilinə məharətlə tərcümə edirdi. Ondan bizə böyük bir ədəbi irs yadigar qalıb. Yəqin ki, tədqiqatçılar, ədəbiyyatçılar Manaf Süleymanov yaradıcılığını bu günün gözü ilə araşdıraraq bu yazıçının Azərbaycan ədəbiyyatına, tarixinə bəxş etdiyi töhfələrin həqiqi dəyərini verəcəklər. O, çox cəfakeş, fədakar, həm də həyat həqiqətinə sadiqliyi ilə seçilən bir qələm sahibi idi.

Manaf Fərəc oğlu Süleymanov 1912-ci il martın 3-də İsmayıllı rayonunun Lahıc qəsəbəsində anadan olub. İlk təhsilini bu kənddə alan Manaf Süleymanovun sonrakı taleyi Bakı ilə bağlıdır. İndiki Neft Akademiyasının geoloji-kəşfiyyat fakültəsini fərqlənmə diplomu ilə bitirən Manaf Süleymanov kəşfiyyatçı dağ mühəndisi diplomu ilə geoloq kimi əmək fəaliyyətinə başlayıb. Uzun müddət Qaradağ Neft-Qaz Mədənləri İdarəsində mühəndis kimi çalışıb. Sonralar doğma institutun neft-qaz yataqları geologiyası axtarışı kafedrasında assistent, dosent olmuşdur. Geoloq əslində torpağın dərin qatlarını öyrənməyi, oxumağı, bir sözlə, dəqiq axtarışlar aparmağı bacarmalıdır. Məhz geoloqların çətin əməyinin, gərgin axtarışlarının, düzgün təyinatlarının nəticəsində torpağın dərinliklərində olan sərvətlər üzə çıxır. Bu mənada geoloqla

yazıçılıq arasında qəribə ünsiyyət, yaxud da oxşarlıq var: biri torpağın ürəyini oxuyur, o biri də həyatın rənglərini araşdırır. Xoşbəxtlikdən Manaf Süleymanovda bu iki qabiliyyət bir-birinə qovuşaraq böyük xarüqələrə, nailiyyətlərə yol açırdı. Uzun illər həm keçmiş SSRİ-nin, həm də Azərbaycandakı dövlət arxivlərində çalışaraq qiymətli sənədlər əldə etmiş Manaf Süleymanovun bu zəngin ədəbi irsi indi Salman Mümtaz adına Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivində mühafizə edilir.

Manaf Süleymanov ingilis, fars, ərəb dillərini mükəmməl bilməklə yanaşı, rus dilində də yazırdı. Əlbəttə, ilk əlyazmaları Azərbaycan dilindədir, lakin bütün bu yazıları ərəb əlifbasında qələmə alıb. Vaxtilə Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyev haqqında ilk arxiv sənədləri toplayan, Üzeyir Hacıbəylinin məktublarının surətini tapan Manaf Süleymanov olub. Manaf Süleymanov adi yazıçı deyildi. O, Azərbaycan bədii ədəbiyyat tarixinin ən yaddaqalan nümayəndələrindən biri idi. Bu gün də arxivlərdə qorunan müxtəlif janrlı əsərləri arasında ssenariləri, oçerkləri, xatirə və gündəlik qeydləri var. O, ömrünün müəyyən anlarını "Şagirdlik illərim" adlı xatirəsində əbədiləşdirib. O, dünyaya gəldiyi qəsəbənin bu xatirələrdə sözlə elə rəsmini çəkib ki, qədim tarixə malik olan Lahıc qəsəbəsi haqqında dərin məlumat almaq istəyirsənsə, öncə gərək bu əsərə diqqət yetirəsən. 1989-cu ildə Samsun Universiteti yazıçının "Bir kitabdan birğac sətir" toplusunu çap etdi. Eləcə də müstəqilliyimizi qazandıqdan sonra müəllifin "Son bahara çatdıq", "Neft milyonçusu", "Şərqdə ilk demokratik cümhuriyyət", "Şagirdlik illərim" adlı kitabları çap edildi. Ötən əsrin sonlarında əməkdar mədəniyyət xadimi fəxri adına layiq görülən Manaf Süleymanovu həmkarlarından ən çox fərqləndirən bir cəhət onun tarixi həqiqətlərə sadiqliyi idi.

Zəngin yaradıcılığı və bütün əsərlərinə çəkdiyi gərgin zəhməti ilə bərabər bu gün Manaf Süleymanovun adı çəkiləndə istər-istəməz dərhal yadımıza "Eşitdiklərim, oxuduqlarım, gördüklərim…" adlı kitabı düşür. Sağlığında iki dəfə nəşr olunmuş bu kitab oxucular arasında böyük əks-səda doğurdu. Uzun illər bilmədiyimiz, əslində bizdən gizlədilən elə həqiqətlər, məlumatlar, hadisələr var idi ki, biz onu ilk dəfə məhz bu kitabda oxuduq. "Eşitdiklərim, oxuduqlarım, gördüklərim…" 1984-cü ildə "Azərbaycan" jurnalında dərc edildi və ədəbi ictimaiyyətdə böyük rəğbət yaratdı. Əsərin maraqla qarşılanmasına səbəb birdən-birə bilmədiklərimizin üzə çıxması oldu. 1987-ci ildə isə kitab halında oxuculara çatdırıldı. Burada Bakının qədim keçmişindən, inqilab dövründə "neft səltənətində" baş verən hadisələrdən, paytaxtımızın qarışıq günlərindən, düçar olduğu bəlalardan, daşnakların şəhər sakinlərinin başına açdığı oyunlardan və s. bəhs edilirdi. Bir həqiqəti də deyək ki, Manaf Süleymanov bu kitabı ilə o vaxt ən çox oxunan, sevilən yazıçılardan birinə çevrildi. Təsəvvür edin ki, yeni nəşr 50 min tirajla çap edilsə də, kitab mağazalarında tapılmırdı. 1989-cu ildə görkəmli yazıçının şöhrət qazanmış "Eşitdiklərim, oxuduqlarım, gördüklərim…" kitabı 70 min tirajla yenidən çap edildi. Müəllif əsər üzərində bir daha işləmiş, redaktəyə, ixtisara məruz qalmış bir sıra məsələləri də ikinci nəşrə əlavə etmişdir. Bu kitabı Bakının keçmişinə səyahət də adlandırmaq olar. Paytaxtımızın tarixindən, coğrafi mövqeyindən, köhnə məhəllələrindən, qoynunda yaşayan insanların adət-ənənələrindən, yaşam tərzindən, dolanışığından, milyonçularından, qoçularından, ziyalılarından geniş söhbət açan müəllif neft sənayesinin inkişafı ilə bağlı müəyyən məqamları da oxucusunun diqqətinə çatdırıb. Bu sərvətdən bəhrələnən insanlar haqqında da oxuculara ətraflı və dəqiq məlumat verib.

## Yubiley tədbirlərinin keçirilməsi

Tanınmış yazıçı, tərcüməçi Manaf Süleymanovun anadan olmasının 105 illiyi ilə əlaqədar respublikamızın hər bir təhsil ocaqlarında, kitabxanalarda, məktəblərdə və s. yerlərdə tədbirlər planı hazırlanmışdır. Tədbirlər planının geniş və maraqlı olması üçün F. Köçərli adına Respublika Uşaq Kitabxanasında sərgi təşkil olunur. Yubilyarın doğum günü münasibətilə təşkil olunan sərgidə yazıçının kitabları, dövri mətbuatda çap olunmuş qəzet və jurnallar, bukletlər nümayiş olunur. Sərgi kitabxananın oxu zalında təşkil olunur. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn: "Manaf Süleymanov – 105, "Qocaman yazıçı", "Manaf Süleymanovun yaradıcılıq yolu", "Manaf Süleymanovun ömür dastanı" və s.

**"Manaf Süleymanov – 105"** adlı sərginin nümunəsini veririk.

1. Başlıq: **"Manaf Süleymanov – 105"**
2. Kitablarının nümayişi.
3. Dövri mətbuatda nəşr olunmuş kartotekaların nümayişi.
4. Görkəmli şəxsiyyətlərin Manaf Süleymanov haqqında söylədikləri fikirlər.
5. Manaf Süleymanov haqqında hazırlanmış bukletlərin nümayişi.

# Kitabların nümayişi


















**Görkəmli şəxsiyyətlərin Manaf Süleymanov haqqında söylədikləri fikirlər:**

Zəngin yaradıcılığı və bütün əsərlərinə çəkdiyi gərgin zəhməti ilə bərabər bu gün Manaf Süleymanovun adı çəkiləndə istər-istəməz dərhal yadımıza "Eşitdiklərim, oxuduqlarım, gördüklərim…" adlı kitabı düşür. Sağlığında iki dəfə nəşr edilmiş bu kitab oxucular arasında böyük əks-səda doğurdu.

**Flora Xəlilzadə**
*Əməkdar jurnalist*

Manaf Süleymanov yazıçı ömrünün bütün ağrılarını, əzablarını və eyni zamanda əvəzsiz xoşbəxtliyini dadmış, görmüş adamlardandır: onun istər keçmiş, istərsə də müasir ədəbiyyatımız, xüsusilə nəsrimiz barədə bir sıra hallarda mübahisəli, bir sıra hallarda isə mübahisəsiz, həqiqqət olan fikirləri, mülahizələri mövcuddur.

**Nizami Cəfərov**
*Əməkdar elm xadimi*




Yazıçı Manaf Süleymanovun yaradıcılığının oxucular arasında geniş təbliği üçün F. Köçərli adına Respublika Uşaq Kitabxanasında kitab müzakirəsinin keçirilməsi daha vacibdir. Kitab müzakirəsində yazıçının qələmə aldığı məşhur kitablarından biri Azərbaycan milyonçusu Ağa Musa Nağıyev haqqında yazdığı kitabdır ki, bu gün biz sizinlə bu kitabın müzakirəsinə yığışmışıq. Kitabxanaçı söhbətə başlayır.

**Kitabxanaçı:** Əsl mətləbə keçməzdən əvvəl istedad və zəhmətdən qısaca bəhs etmək istəyirəm. İctimai həyatın bütün sahələrində məqsədə çatmaq, istəniləni əldə etmək üçün yeganə vasitə əməkdir. Bunu sübut etmək üçün minlərlə misal göstərmək olar.

Elektrik lampasını kəşf etməklə sehrbaz kimi dillər əzbəri olan Edison uşaqlıqda küçələrdə qəzet satırmış. Enşteyn adi assistent, Rokfeller baqqal dükanında satıcı olub. Elə götürək bizim milyonçuları: Hacı Zeynalabdin Tağıyev palçıqçı, Şəmsi Əsədullayev, Çolaq Ağabala və Murtuz Muxtarov apabaçı, fəhlə, Hacı Hacıağa karvansaraçı, Musa Nağıyev şələçi idi. Bu adamları halal əməkləri elə ucaldıb ki, adları dünya durduqca yaşayacaqdır.

Müzakirəsinə yığıldığımız bu kitabda əfsanəvi milyonçu Musa Nağıyevdən danışacağıq. Musa Nağıyev özü adi bir saman satanın oğlu idi. 1848-ci ildə anadan olmuşdu. Sonralar varlanan Ağa Musa var-dövlətdə Hacı Zeynalabdin Tağıyevdən heç də geri qalmırdı. Hətta ondan zəngin idi.

Ağa Musa Biləcəridə çox kasıb ailədə doğulmuşdu. Atası Nağının peşəsi saman satmaqdı, qardaşı isə ömrünün axırına qədər hamamçı olmuşdu. Ağa Musa cavanlıqda dalında palan biri üç qəpiyə, beş qəpiyə ona buna şələ daşıyarmış; zəhmət - əmək hesabına pul yığıb əvvəl Balaxanıda neft təbəqələri dayazda yerləşən, quyu qazdırmaq nisbətən asan olan yerdə balaca sahə aldı. Gecə-gündüz quyu qazanların yanından çəkilmir, heç kimi bekar qalmağa, hədər vaxt itirməyə qoymurdu. Adətən, xoş dillə onları işləməyə vadar edirdi. Yeri gələndə isə acıqlanırmış. Hər iki halda da fəhlələrə "atam-atam"- deyə müraciət edərmiş: "Atam-atam, çox sağ ol!, Yaxşı işlə, xoşum gəlsin səndən!", "Atam-atam, başına dönüm!" Acıqlananda isə "Atam-atam, belə eləsən məni müflis edərsən",

“Atam-atam, deyəsən məqsədin mənim boynuma torba salıb dilənçi etməkdir!”.

Ağa Musa özü də fəhlələrlə bərabər ağır işlərdə işləyərdi. Nəhayət, bir gün tale onun üzünə gülür, quyu fontan vurur, şələçi Musa dönüb olur Ağa Musa, milyonçu Ağa Musa Nağıyev. Özü də get-gedə bacarıqlı bir iqtisadçı olur. 1893-cü ildə Sabunçuda, sonra isə Ramanada mədən salır. O zamanlar ən zəngin hesab edilən Bibiheybət dərəsində, Naftalan körfəzi sahilində mədən ələ keçirir. Qazılan quyuların hamısı güclü fontan vurur. Çox keçmir ki, Ağa Musa Suraxanıda da mədən salır. Qaraşəhərdə xüsusi neftayırma zavodu tikdirir, öz mədənlərində alınan neftdən başqa həm də kənar neftxudalar üçün neft təmizlətdirib haqqını alır. Mexaniki emalatxana düzəltdirir. Hər yerdən qara neft qızıla çevrilib bulaq kimi sandıqlarına axır…

XIX əsrin sonlarında Ağa Musa “Neftçıxarma firması” yaradır. Şəhərdə çoxlu mülk tikdirir və alır, yüzə qədər əzəmətli bina və neçə-neçə gəmi sahibi olur.

Ağa Musa təmtərağı, dəbdəbəni sevməzdi, şan-şöhrətdən məst olmazdı, artıq xərcdən, israfçılıqdan qaçardı. Ağa Musa haqqında çox deyilərdi ki, xəsisdir. Xəsislikdə ad çıxarmış Ağa Musa bəzən elə səxavət göstərirdi ki, hamı heyrətlənirdi.

Bir gün Ağa Musanın saqqalını qırxan, saçını düzəldən dəllək evə gəlir. Həmişə olduğu kimi Ağa Musanın saçına, saqqalına əl gəzdirir. Dəllək yerə döşənmiş xalını görüb deyir, xozeyn, dövlətli adamsan, bu xalını bağışla mənə. Ağa Musadan görünməyən səxavət, işlər müdirinə tapşırır ki, bir belə xalı alıb ustaya versin.

Bir dəfə dənizdə bərk tufan olur, çoxlu gəmi batır. Ağa Musanın gəmilərindən birinin kapitanı xəbər verir: “Yükü və gəmini zorla xilas etmişəm, qoyun qurbanı nəzir demişəm, icazə ver…” Ağa Musa bərk dilxor olur, kapitanın sözünü yarıda kəsib başlayır məzəmmət eləməyə: “Çox nahaq yerə! Atam-atam,

mənim hesabıma niyə qurban nəzir edirsən. Belə vaxtlarda əhd elə ki, bir həftə oruc tutaram, gəmidə xozeyn hesabına yox, öz hesabıma yeyərəm".

Ağa Musa ağır, üzüntülü xəstəlikdən sonra 1919-cu ilin aprel ayında vəfat edir. Ağa Musa vəfat edəndə Ağa İsmayıl…İsmailiyyə…Naftalan…Bibiheybət sözlərini təkrar edirmiş.

İsmayılı tez-tez xatırlaması təbii hal idi. Yeganə oğulu itirmək, əlbəttə, ən acı faciə, dözülməz, unudulmaz dərd və ömür boyu sızıldayan yaradır… "İsmailiyyə" sarayını da əbədi xatirə kimi onun adına, şərəfinə ucaltmışdı.

Bəli, əziz oxucu! Ümidvarıq ki, milyonçu Ağa Musa Nağıyev haqqında bilmədiklərinizi bu kitabda tapacaqsınız. Manaf Süleymanovun qələmə aldığı bu kitab siz oxucuların sevə-sevə oxuya biləcəyi, stolüstü kitablarınızdan biri olacaqdır.

Elə yazıçılar var ki, bütün ömürləri boyu ancaq bir mövzuya müraciət edirlər. Manaf Süleymanovun da qələminə ən çox yatan mövzu fəhlə həyatıdır, qurub-yaradan əmək adamlarının ömür-günüdür. Bu mövzu yazıçının bütün yaradıcılığının mayasını təşkil edir. O, ədəbiyyata əllinci illərdə neft kəşfiyyatçılarının həyatından bəhs edən "Yerin sirri" romanı ilə gəldi. Bir az sonra dəniz neftçilərinin qəhrəmanlıq mübarizəsindən, fədakarlığından bəhs edən "Dalğalar qoynunda", "Fırtına", Daşkəsən filizçilərinin həyatını işıqlandıran "Zirvələr" romanlarının müəllifi kimi tanındı.

Görkəmli yazıçı Manaf Süleymanovun yaradıcılığı ilə oxucuları yaxından tanış etmək üçün F. Köçərli adına Respublika Uşaq Kitabxanasında *ədəbi-bədii gecənin* də keçirilməsi nəzərdə tutulmuşdur. Kitabxanaçı ədəbi-bədii gecəyə iki ay qabaqcadan hazırlaşır. İlk əvvəl tədbirin ssenarisi hazırlanır. Tədbirdə iştirak edən qonaqlar müəyyənləşdirilir. Tədbir iki hissədən ibarət olur. Birinci hissədə çıxış və

məruzələr dinlənilir. İkinci hissədə isə yazıçının əsərlərindən, hekayə və povestlərindən səhnəciklər göstərilir. Tədbirdə şair və yazıçılar, ədəbiyyat müəllimləri iştirak edir. *"Görkəmli söz ustası"* adlı ədəbi-bədii gecənin ssenarisini nümunə üçün veririk. Səhnədən Mustafa Çəmənlinin portreti asılır. Yubileylə bağlı səhnə gül-çiçəklə bəzədilir.

***"Günlər tələsirmiş kimi tez keçir, bir-birinə calanır, arxada qalırdı. Hər sabahkı gün isə bir yenilik gətirirdi. İnsan da tələsir! Hara? Sabaha. Dünənə, kim bilir, nə qədər ağır, kədərli, hətta işgəncəli olsa da təəssüf edir. İçərisində yaşadığı bu günü dərk etmir, qiymətləndirmir, nələr gətirəcəyini bilmədiyi sabahın intizarını çəkir, onu səbirsizliklə gözləyir..."***

*Aparıcılar səhnəyə daxil olur.*

**I Aparıcı:** Hörmətli tədbir iştirakçıları! Bu gün yazıçı, publisist öz roman, povest və hekayələri ilə çoxdan oxucuların rəğbət və məhəbbətini qazanmış Manaf Süleymanovun 105 illik yubileyini qeyd etmək üçün yığışmışıq. Gəlin birlikdə Manaf Süleymanovun həyat və yaradıcılığına nəzər salaq.

Azərbaycanda yazıçı Manaf Süleymanovu tanımayan tək-tük oxucu tapılar. Onun ömrünün müdrik çağında qələmə aldığı "Eşitdiklərim, oxuduqlarım, gördüklərim" əsəri bir neçə dildə nəşr olunub, kütləvi tirajla buraxılsa da, onu kitab mağazalarında tapmaq çox müşkül idi. Manaf Süleymanovun çox qüdrətli publisist olması onun "Eşitdiklərim, oxuduqlarım, gördüklərim" kitabında özünü göstərdi. Bu kitab Azərbaycan ədəbiyyatına və tarixinə qiymətli bir töhfədir.

M. Süleymanov 1912-ci ildə Novruz bayramı ərəfəsində qədim tarixli, orta əsrlərə məxsus zəngin etnoqrafik mədəniyyəti olan Lahıc qəsəbəsinin Balaca Lahıc hissəsində ziyalılar məhəlləsində dünyaya gəlmişdi. Manaf Süleymanovun atası Fərəculla Məşədi Süleyman oğlu mollaxana təhsili görmüşdü, bir neçə dil bilirdi, ticarətlə məşğul olurdu. Manaf zəif uşaq

olduğuna görə xüsusi qayğıya möhtac idi və ata nənəsi Məşədi Gülsüm Molla Ələsgər qızı heç kəsə ümid olmayıb bir müddət ona özü baxmışdı, ata nənəsinin ölümündən sonra Manafı Bakıya köçənə qədər ana nənəsi Mədinə xanım böyüdür. Sonralar yazıçı hər iki nənəsini böyük məhəbbətlə xatırlayır, onların qayğıkeşliyi barədə danışmaqdan doymurdu. Manaf Süleymanovun uşaqlığı ərköyün olmuşdu.

Yazıçı Manaf Süleymanovun yaradıcılığını fərqləndirən vacib bir sahə də onun tərcüməçilik fəaliyyətidir. İngilis dilini yaxşı bilən yazıçı birbaşa orijinaldan tərcümələr edib. Onun "Son yarpaq" (1972), "Amerika yazıçılarının povest və hekayələri" (1983) tərcümə kitablarında C. London, E. Heminquey, C. Moem və başqalarından etdiyi tərcümələri qiymətlidir.

**II Aparıcı:** Həyatda elə şəxsiyyətlər var ki, onların işgüzarlığına, yüksək yaradıcılıq qabiliyyətinə heyran qalmamaq olmur. Görkəmli yazıçı Manaf Süleymanov da belə qələm sahiblərindən biri idi.

Manaf Süleymanovun söylədiklərindən: "Mən həmişə əziyyət çəkməyi, yaradıcılıq əzablarından zövq almağı bacaran adam olmuşam. Elə vaxt olub ki, bir sutkada ara vermədən 18 saat işləmişəm. E. Hemunqueyin Nobel mükafatına layiq görülmüş məşhur "Qoca və dəniz" əsərini dilimizə çevirərkən gərgin çalışmışam".

Cek Londonun "Həyat eşqi" və O. Henrinin "Mirvari" əsərlərini dilimizə çevirərkən işin çətinliyi və mürəkkəbliyi üzündən çox əziyyətlər çəkmişəm.

Manaf Süleymanov yaradıcılığa romanla başlamış və irihəcmli əsərlər yazmağa üstünlük vermişdir, ancaq onun bir sıra hekayələri də mövcuddur və yazıçı bu sahədə də müvəffəqiyyətlər qazanmışdır desək, səhv etmərik. "Yox biz heç yerə gedən deyilik", "Meşəli dağlarda", "O da bir az cəld

tərpənəydi”, xüsusilə “Kişi deməz” kimi hekayələr diqqəti daha çox çəkir. M. Süleymanovun hekayələrində milli kolorit dərhal diqqəti çəkir. “Yox, biz heç yerə gedən deyilik” hekayəsində əvvəl rəncbər olub, sonra dükan açmış bir kəndlinin sovet hakimiyyətinin ilk illərində başına gələnlərdən bəhs edilir – vergini vaxtında vermədiyinə görə onu divan-dərəyə çəkirlər. Kəndli uzaq dağ qəsəbəsindən Bakıya Nəriman Nərimanovun yanına gedir, şikayətini ona edir:

Nəriman Nərimanov mülayimcəsinə xəbər alır:

– İşini düzəltdik, amma indi düzünü de görüm, niyə vergini vaxtında verməyib, gətirib məsələni bu yerə çatdırmısan?

Səfərəli xırda gözlərini qıyıb udqundu, hörmətlə dedi:

– Nərimanov yoldaş, soruşursunuz, Sizə yalan deyə bilməyəcəm. Öldürsələr də düzünü deyəcəm. Dövlətlilər, mollalar, hacılar gecə-gündüz oturub-durub deyirdilər ki, bu hökumət qalmayacaq, dəyişəcək, bunlar gedəcək. Mən də fikirləşirəm ki, madam gedəcəklər, daha niyə aparıb bir ətək pulu verim divanxanaya. Onsuz da gedəcəklər...

Nərimanov özünü saxlaya bilməyib qeyri-ixtiyari gülümsədi, başını mənalı tərzdə bulayaraq:

– Yox, biz heç yerə gedən deyilik! – dedi, – hamıya bunu xəbər verərsən. Biz həmişəliyik...”

“O da bir az cəld tərpənəydi” heyakəsindən.

Bir gün çoban Gülməli xandan o biri xana peşkəş olaraq on qoyun aparır, onların içində çobanın ən çox sevdiyi bənöş qoç da var idi. Bənöş qoçun nə üçün başqasına peşkəş edildiyindən hirslənən çoban onu kəsib kabab çəkir, doqquz qoyunu isə sahibinə çatdırır.

Bu zaman xan çobandan nə üçün on yox, doqquz qoyun gətirdiyini soruşur. Çoban isə özünü elə göstərir ki, guya ki, heç nədən xəbəri yoxdur. Bu zaman xan on nökəri çağırtdırıb əmr edir ki, hərəniz bir qoyun tutun. Nökərlər hərəsi bir qoyun tutur,

biri qalır boş. Xan deyir ki, gədə görürsən, nökərin birinə qoyun çatmadı... Çoban bu zaman cavab verir:
– Mən neyləyim, o da bir az cəld tərpənib birini tutaydı...

Yazıçı Manaf Süleymanovun “Eşitdiklərim, oxuduqlarım, gördüklərim” əsəri XIX əsrin sonu XX əsrin əvvəllərində Bakının ictimai-siyasi, etnoqrafik vəziyyətini araşdıran tədqiqatçılar üçün maraqlı mənbədir. Müəllif sənədlərə əsaslandığı kimi, ayrı-ayrı şəxslərdən eşitdiyi məlumatları, epizodları yazmış və bötöv bir mənzərə yaratmışdır.

Kitabda elə əhvalatlar var ki, nadir elmi-tarixi fakt hüququna malikdir, elə məsələlərdən bəhs olunur ki, ancaq bu əsərdədir. Məsələn, Bakı qoçuları, ümumiyyətlə, bu təşkilatın yaranması, fəaliyyəti və süqutu; yaxud türklərin Bakıya gəlişi və burada gördükləri işlər barədə verilən məlumatlar tamamilə yenidir; bunlar bizim tariximizdir, biz bunları bilməliyik, həm də daha ətraflı bilməliyik...

M. Süleymanovun həyat və yardıcılığı bizi hər zaman dünən, bu gün və sabah barədə düşüncələrə çəkir. Bəli, nələr gətirəcəyini bilmədiyimiz sabahın intizarını çəkirik, onu səbirsizliklə gözləyirik!..

Həyatda elə şəxsiyyətlər var ki, onların işgüzarlığına, yaddaşına, yüksək yaradıcılıq qabiliyyətinə heyran qalmamaq olmur. Görkəmli yazıçı Manaf Süleymanov da belə qələm sahiblərindən biridir.

**S O N**

## Ədəbiyyat siyahısı


***Əsərləri***

***Latın qrafikası ilə***

Eşitdiklərim, oxuduqlarım, gördüklərim. - Bakı : Xəzər, 2009. - 344 s. : foto, rəngli foto, portr., rəngli il.

***Elektron resurslarda***

Eşitdiklərim, oxuduqlarım, gördüklərim [Elektron resurs] / məsl. L. Məmmədova ; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. - Elektronik mətn. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. opt. disk (CD-ROM) : rəng. : rəngli şək., il. - (Nizami layihəsi). - (qutuda).

***Kiril qrafikası ilə***

Seçilmiş əsərləri : İki cilddə. I cild : Yerin sirri. Dalğalar qoynunda : roman. - Bakı : Azərnəşr, 1993. - 452 s.

Seçilmiş əsərləri : İki cilddə. II cild. - Bakı : Azərnəşr, 1993. - 248, [1] s.

Azərbaycan milyonçuları: Ağa Musa Nağıyev. - Bakı : Gənclik, 1994. - 40 s.

Dalğalar qoynunda : roman və hekayələr . - Bakı : Gənclik, 1977. - 263, [1] s.

Eşitdiklərim, oxuduqlarım, gördüklərim . - Bakı : Azərnəşr, 1989. - 376 s.

Fırtına : roman . - Bakı : Gənclik, 1969. - 252, [1] s.

Müsəlman dünyasında ilk xalq cümhuriyyəti . - Bakı : Hüquq nəşriyyatı, 1999. - 164 s.

Yerin sirri. Dalğalar qoynunda : roman. - Bakı : Azərnəşr, 1993. - 452 s.

Zirvələrdə : roman və hekayələr. - Bakı : Gənclik, 1988. - 287, [1] s.

### *Kitablarda*

Ağa Musa Nağıyev // Eşitdiklərim. Oxuduqlarım. Gördüklərim. – Bakı : Xəzər, 2009. - S. 146-162.

Hacı Hacıağa // Eşitdiklərim. Oxuduqlarım. Gördüklərim. - Bakı : Xəzər, 2009. - S. 196-199.

Hacı Zeynalabdin Tağıyev // Eşitdiklərim. Oxuduqlarım. Gördüklərim. - Bakı : Xəzər, 2009. - S. 131-146.

İsabəy Hacınski // Eşitdiklərim. Oxuduqlarım. Gördüklərim. - Bakı : Xəzər, 2009. - S. 200-203.

Murtuza Muxtarov // Eşitdiklərim. Oxuduqlarım. Gördüklərim. - Bakı : Xəzər, 2009. - S. 173-180.

Nobel qardaşları // Eşitdiklərim. Oxuduqlarım. Gördüklərim. - Bakı : Xəzər, 2009. - S. 162-173.

Seyid Mirbabayev // Eşitdiklərim. Oxuduqlarım. Gördüklərim. - Bakı : Xəzər, 2009. - III fəsil. - S. 184-186.

### *Dövri mətbuatda*

"Əbədi düşüncələrimiz" : Bakının daşnaqlardan azad olunmasının 88-ci ili // Mədəniyyət. - 2006. - 16sentyabr. - S.5.

*Haqqında*

**Cəfərov N.** Dolan, kəfkirim, dolan : dastan. - Bakı : Yazıçı, 1993. - 176 s. - kiril əlifbası ilə. - Manaf Süleymanovun ömür dastanı.

*Dövri mətbuatda*

**Abbaslı T.** Xalı-xalı xatirələr : ədəbi eşqlə eşidilmiş, irfani maraqla oxunmuş, bəsirəti gözlə görülmüş xatirələr // Mədəniyyət. - 2017. - 1 mart. - № 16. - S. 15.

**Abbaslı T.** Manaf Süleymanov [Nağıl-noğul şirəli, dastan-qəzəl ləzzətli, kinofilmlər kimi canlı qələm sahibi] // Mədəniyyət. - 2016. - 2 mart. - № 17. - S. 13.

**Nasir Ş.** Eşitdiklərinə, oxuduqlarına, gördüklərinə ədəbi ömür verən yazıçı Manaf Süleymanov // Yada düşdü. - 2013. - № 3. - S. 37-45.

**Sərvi S.** Bir ömrün sirri : Manaf Süleymanov haqqında // El. - 2010. -№ oktyabr. - S. 4-11.

# Könlünü sözə bağlayan yazıçı
**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş:53
Çapa imzalanmışdır:02.01.2017
Tirajı:100
Pulsuz